


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 184 (24.321)

*6 oktyabr 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanının ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteylinin etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan arasında qardaşlıq əlaqələrinin və ölkə rəhbərləri ilə arasında dostluq münasibətlərinin olduğunu qeyd edən Prezident İlham Əliyev Səudiyyə Ərəbistanına səfərlərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı bütün dövrlərdə – həm işğal zamanı, həm də torpaqlarımızın işğaldan azad olunmasından sonrakı dövrdə Azərbaycanın ərazi bütövlüyünün qorunması və bərpası məsələlərində Səudiyyə Ərəbistanı Krallığının birmənalı şəkildə göstərdiyi mənəvi və siyasi dəstəyi bir daha yüksək qiymətləndirdi. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birinə qarşılıqlı dəstəyinin ənənəvi xarakter aldığını məmnunluqla qeyd etdi.



İqtisadi əməkdaşlığa toxunan dövlətimizin başçısı enerji sahəsində yaxşı nümunələrin olduğunu bildirərək, Səudiyyə Ərəbistanı şirkətinin Azərbaycanda bu sahəyə böyük sərmayə qoymasının önəmini vurğuladı. Dövlətimizin başçısı bütün digər sahələrdə də əlaqələrimizin yüksək səviyyədə olduğunu dedi.

Səfir İssam bin Saleh əl-Cuteyli, ilk növbədə, İki Müqəddəs Ocağın Xadimi, Kral Salman bin Əbdüləziz Al Səudun və Vəliəhd, Baş nazir Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İki Müqəddəs Ocağın Xadiminə və Vəliəhdə çatdırmağı xahiş etdi.

Ölkəmizə səfir təyin olunmasından böyük şərəf hissi duyduğunu deyən İssam bin Saleh əl-Cuteyli Azərbaycanın Səudiyyə Ərəbistanı üçün dost və qardaş ölkə olduğunu vurğulayaraq müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsi ilə bağlı konkret təlimatlar aldığını bildirdi.

## Azərbaycan Prezidenti İlham Əliyev İordaniyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də İordaniya Haşimilər Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ömər Bərəkət əl-Naharın etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir, ilk növbədə, İordaniya Haşimilər Krallığının Kralı II Abdullah ibn Al Hüseynin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniya Kralına çatdırmağı xahiş etdi.

Azərbaycan ilə İordaniyanın dost və qardaş, zəngin tarixə malik ölkələr olduğunu vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğunu dedi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində hər zaman bir-birini dəstəklədiyini məmnunluqla qeyd etdi.

Siyasi əlaqələrimizin yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev gələcəkdə iqtisadi əməkdaşlığın da genişləndirilməsinin önəmini vurğuladı.

Azərbaycana səfir təyin olunmasından məmnunluğunu bildirən Ömər Bərəkət əl-Nahar paytaxtımızda gedən böyük inkişaf proseslərinin və insanların firavanlığının onda dərin təəssürat hissi yaratdığını dedi.

Prezident İlham Əliyev Azərbaycan haqqında söylədiyi xoş sözlərə görə səfirə minnətdarlığını bildirdi və ona fəaliyyətində uğurlar arzuladı.

Görüşdə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, turizm, təhsil və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

**AZƏRTAC**

## Muxtar respublikada fəaliyyət göstərən müəllimlər sosial şəbəkə hesablarında səlahiyyətli nümayəndə Fuad Nəcəflinin təbrik mesajını paylaşıb




Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli 5 oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə muxtar respublikada fəaliyyət göstərən ali, orta ixtisas, ümumi, məktəbəqədər, peşə, məktəbdənkənar və uşaq musiqi məktəblərinin müəllimlərini təbrik edib.

Sözügedən müəssisələrdə çalışan bütün müəllimlərin mobil əlaqə nömrəsinə təbrik mesajı göndərilib.

Təbrik mesajında deyilir: "Sizi Beynəlxalq Müəllimlər Günü münasibətilə təbrik edir, cansağlığı, xoşbəxtlik və fəaliyyətinizdə uğurlar arzulayıram".

Qeyd edək ki, təbrik mesajı 10 mindən çox müəllimi əhatə edib.

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının növbəti iclası keçirilib



Oktyabrın 5-də Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının növbəti iclası keçirilib.

İclasın gündəliyinə aşağıdakı məsələlər verilib:

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavininin müraciətinə baxılması

2. "Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununda dəyişiklik edilməsi

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov gündəlikdə duran birinci məsələ ilə bağlı qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini vəzifəsindən istefası ilə bağlı müraciət edib.

Ali Məclis sədrinin birinci müavini Azər Zeynalov istefa ilə bağlı müraciət edib.

Müzakirə olunan məsələ ilə əlaqədar qərar layihəsi oxunduqdan sonra səsə qoyularaq qəbul edilib.

Gündəlikdə duran ikinci məsələ – "Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununda dəyişiklik edilməsi barədə bildirilib ki, Azərbaycan Respublikasının

*Ardı 2-ci səhifədə*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitə iclası keçirilib



Oktyabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclası keçirilib.

İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin 7 üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov iştirak edib.

Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli gündəlikdə duran məsələ – "Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının qanununda ediləcək dəyişikliklə bağlı layihə hazırlandığını bildirib.

Qanun layihəsi haqqında Cəlil Rüstəmov və Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva məlumat verib.

Müzakirələrdən sonra qanun layihəsi altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının növbəti iclasına təqdim edilməsi üçün səsə qoyulub, qərar qəbul edilib.

2023-cü il 9 iyun tarixli Konstitusiya Qanunu ilə “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilib. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikasının müvafiq qanununda dəyişiklik layihəsi hazırlanıb.

Layihə ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli məlumat verib.

Deputatlardan Elman Cəfərli, Yeganə Məmmədova və Aidə Allahverdiyeva ölkəmizdə müvəkkil (Ombudsman) institutunun əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu və təsisatın əhəmiyyətini diqqətə çatdırıb, qanun layihəsinə edilən müvəkkilin (Ombudsmanın) vəzifə maaşının, səlahiyyətlərinin artırılması və digər əlavə və dəyişikliklərin Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında həyata keçirilən islahatlara cavab verdiyini, insan hüquqlarının daha da etibarlı təminatına şərait yaradacağını, eləcə də dayanıqlı inkişafa xidmət edəcəyini bildirib, dəstək ifadə ediblər.

Elman Cəfərli qanun layihəsi ilə əlaqədar texniki təkliflər edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov təklifə münasibət bildirib.

Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva yeni qanun layihəsi haqqında, həmçinin layihə ilə yaradılması nəzərdə tutulan müstəqil monitorinq mexanizmi və funksiyaları yenilənmiş preventiv mexanizmin həyata keçirilməsi qaydaları haqqında məlumat verib.

Qanun layihəsi səsə qoyularaq qəbul olunub.

Sonda deputatlar cari məsələləri müzakirə ediblər.

Bununla da Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 5 oktyabr 2023-cü il tarixli iclası öz işini başa çatdırdı.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının

# Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununda aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddə üzrə:

1.1. adına “müvəkkilinin” sözündən sonra “(ombudsmanının)” sözü əlavə edilsin;

1.2. 1.1-ci maddədə “müvəkkili vəzifəsi (bundan sonra “Müvəkkil” adlandırılacaq)” sözləri “müvəkkili (ombudsman) vəzifəsi (bundan sonra – Müvəkkil)” sözləri ilə, “dövlət və yerli özünüidarə orqanları,” sözləri “dövlət orqanları, bələdiyyələr, habelə dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər (o cümlədən publik hüquqi şəxslər) və büdcə təşkilatları (bundan sonra – dövlət orqanları, bələdiyyələr və digər qurumlar), onların” sözləri ilə əvəz edilsin;

1.3. 1.3-cü maddədə “informasiya sahibi olan dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərin” sözləri “dövlət orqanlarının, bələdiyyələrin, publik hüquqi şəxslərin, onların vəzifəli şəxslərinin (bundan sonra – informasiya sahibləri)” sözləri ilə əvəz edilsin;

1.4. aşağıdakı məzmunda 1.3-1-ci maddə əlavə edilsin:

“1.3-1. Müvəkkil “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyanın və “Uşaq hüquqları haqqında” Konvensiyanın muxtar respublikada həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirir.”;

1.5. aşağıdakı məzmunda 1.11-ci maddə əlavə edilsin:

“1.11. Müvəkkil insan hüquqları sahəsində Dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının və konsepsiyaların muxtar respublikada icrası prosesinin təhlilini apara, rəy və təkliflərini müvafiq sahədə monitorinq və qiymətləndirməni həyata keçirən quruma təqdim edə bilər.”.

2. 3.4-cü maddədə “gün” sözü “iş günü” sözləri ilə əvəz edilsin.

3. 4.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

“4.3. Müvəkkilin səlahiyyətlərinin bitməsinə 30 gün qalmış Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə yeni Müvəkkilin seçilməsi üçün üç şəxsin namizədliyini təqdim edir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 15 gün müddətində Müvəkkilin seçilməsi ilə bağlı müvafiq qərar qəbul edir.”.

4. 5-ci maddə üzrə:

4.1. 5.2.3-cü maddədə “hər hansı dövlət və ya yerli özünüidarə orqanı, vəzifəli şəxsi” sözləri “dövlət orqanları, bələdiyyələr və digər qurumlar, onların vəzifəli şəxsləri” sözləri ilə əvəz edilsin;

4.2. 5.3-cü maddəyə “hərbi vəziyyətin” sözlərindən sonra “, habelə epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin” sözləri əlavə edilsin.

5. 6.4-cü maddəyə “poçt-teleqraf” sözlərindən sonra “və elektron” sözləri əlavə edilsin.

6. II fəslin adında “və preventiv mexanizmin” sözləri “, preventiv mexanizmin və müstəqil monitorinq mexanizminin” sözləri ilə əvəz edilsin.

7. 8-ci maddə üzrə:

7.1. 8.1-ci maddədə “ərizəçi” adlandırılacaq” sözləri “ – ərizəçi” sözü ilə əvəz edilsin;

7.2. 8.2-ci maddənin birinci cümləsinə “qeyri-hökumət təşkilatları” sözlərindən sonra “(ictimai birliklər və fondlar), media subyektləri, həmkarlar ittifaqları, vətəndaşların təşəbbüs qrupları və bələdiyyələrin məhəllə komitələri (bundan sonra – vətəndaş cəmiyyəti institutları)” sözləri əlavə edilsin və həmin maddənin ikinci cümləsində “qeyri-hökumət təşkilatları” sözləri “vətəndaş cəmiyyəti institutları” sözləri ilə əvəz edilsin;

7.3. 8.5-ci maddədə “saxlanılma yerlərində” sözləri “saxlama yerlərində, qarnizon hauptvaxtlarında, qanunsuz miqrantların saxlanılması mərkəzində, habelə saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərdə, o cümlədən müvafiq tibb və təhsil müəssisələrində (bundan sonra – şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlər)” sözləri ilə əvəz edilsin.

8. 12-ci maddə üzrə:

8.1. 12.1-ci maddənin birinci cümləsində “orqanın” sözü “dövlət orqanının, bələdiyyənin və digər qurumun” sözləri ilə əvəz edilsin;

8.2. 12.2.1-ci maddədə “dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına, Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrə, habelə polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə, qarnizon hauptvaxtlarına, psixiatriya müəssisələrinə, qanunsuz miqrantların saxlanılması mərkəzinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə” sözləri “dövlət orqanlarına, bələdiyyələrə və digər qurumlara, Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrə, polis orqanlarına, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə” sözləri ilə əvəz edilsin, həmin maddəyə ikinci halda “saxlanılan” sözündən sonra “və ya əvvəllər saxlanılmış” sözləri, “protokollaşdırmaq;” sözündən sonra “texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını aparmaq;” sözləri əlavə edilsin;

8.3. 12.2.2-ci maddədə “dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən” sözləri “dövlət orqanlarından, bələdiyyələrdən və digər qurumlardan, onların vəzifəli şəxslərindən” sözləri ilə əvəz edilsin;

8.4. 12.2.5-ci maddədə “orqan” sözü “dövlət orqanı, bələdiyyə və digər qurum” sözləri ilə əvəz edilsin;

8.5. 12.2.7-ci maddədə “dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının rəhbərləri və digər vəzifəli şəxsləri, Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrin komandirləri, polis bölmələrinin, müvəqqəti saxlama yerlərinin, istintaq təcridxanalarının, cəzaçəkmə müəssisələrinin, qarnizon hauptvaxtlarının, psixiatriya müəssisələrinin, qanunsuz miqrantların saxlanılması mərkəzinin və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərin” sözləri “dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların rəhbərləri və digər vəzifəli şəxsləri, Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrin komandirləri, polis orqanlarının, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin” sözləri ilə əvəz edilsin, həmin maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 12.2.8-ci və 12.2.9-cu maddələr əlavə edilsin:

“12.2.8. şikayət üzrə yerində araşdırma aparmaq və nəticələrini sənədləşdirmək;

12.2.9. bu Qanunun II fəsli ilə müəyyən edilmiş qaydada şikayətlərə baxılması, preventiv mexanizmin və müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi zamanı hüquq pozuntularının qarşısının alınması və aşkar edilmiş pozuntuların aradan qaldırılması məqsədilə dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların nümayəndələrini dəvət etməklə tədbirlər görmək.”.

9. 13-cü maddə üzrə:

9.1. 13.1-ci maddədə “5” rəqəmi “10” rəqəmləri ilə əvəz edilsin;

9.2. 13.2.1-ci maddədə “dövlət və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən” sözləri “dövlət orqanlarından, bələdiyyələrdən və digər qurumlardan, onların vəzifəli şəxslərindən” sözləri ilə, “orqanlar” sözü “dövlət orqanları, bələdiyyələr və digər qurumlar” sözləri ilə əvəz edilsin;

9.3. 13.2.3-cü maddədə “orqanlarına” sözü “dövlət orqanlarına, bələdiyyələrə və digər qurumlara” sözləri ilə əvəz edilsin;

9.4. 13.2.6-cı maddədə “dövlət və ya yerli özünüidarə orqanının” sözləri “dövlət orqanının, bələdiyyənin və digər qurumun” sözləri ilə əvəz edilsin.

10. 13-1-ci maddə üzrə:

10.1. 13-1.2.1-ci və 13-1.2.3-cü maddələrdə “sahibi olan dövlət orqanının, yerli özünüidarə orqanının və ya vəzifəli şəxsin” sözləri “sahibinin” sözü ilə əvəz edilsin;

10.2. 13-1.3-cü və 13-1.5-ci maddələrdən “olan dövlət orqanı, yerli özünüidarə orqanı və ya vəzifəli şəxs” sözləri çıxarılsın;

10.3. 13-1.4-cü maddədə “sahibi olan dövlət orqanından, yerli özünüidarə orqanından və ya vəzifəli şəxsdən” sözləri “sahibindən” sözü ilə əvəz edilsin;

10.4. aşağıdakı məzmunda 13-1.6-cı maddə əlavə edilsin:

“13-1.6. Müvəkkil informasiya əldə etmək hüququnun pozulmasına dair şikayətə baxarkən informasiya sahiblərindən zəruri məlumatları (sənədləri, materialları) və ya onların surətlərini tələb edə bilər. Həmin məlumatlar (sənədlər, materiallar) 5 iş günü müddətində Müvəkkilə təqdim edilməlidir.”.

11. Aşağıdakı məzmunda 13-2-ci və 13-3-cü maddələr əlavə edilsin:

**“Maddə 13-2. Preventiv qrup**

13-2.1. Bu Qanunun 1.2-ci maddəsində nəzərdə tutulmuş preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi məqsədilə Müvəkkilin aparatında Preventiv qrup yaradılır. Yaşı 25-dən aşağı olmayan, ali təhsilli, insan hüquqlarının müdafiəsi sahəsində təcrübəyə və yüksək əxlaqi keyfiyyətlərə malik olan şəxslər preventiv qrupun üzvü təyin olunurlar. Preventiv qrupun üzvləri Müvəkkil tərəfindən 3 il müddətinə şəffaf prosedurlar əsasında təyin olunurlar.

13-2.2. İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır və xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxs Preventiv qrupun üzvü təyin oluna bilməz.

13-2.3. Preventiv qrup aşağıdakı hüquqlara malikdir:

13-2.3.1. istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis orqanlarına, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə daxil olmaq, saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən digər şəxslə təkbətək və ya mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək, saxlanılan və ya əvvəllər saxlanılmış şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq, akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq, texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını aparmaq;

13-2.3.2. polis orqanlarının, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin rəhbərliyi tərəfindən təxirə salınmadan qəbul edilmək;

13-2.3.3. preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi zamanı hüquq pozuntularının qarşısının alınması və aşkar edilmiş pozuntuların aradan qaldırılması məqsədilə dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların nümayəndələrini dəvət etməklə tədbirlər görmək.

13-2.4. Preventiv qrupun üzvü öz funksiyalarını həyata keçirməsi ilə əlaqədar ona məlum olmuş faktlar barəsində ifadə verməyə və ya hər hansı digər üsulla bu faktları açıqlamağa məcbur edilə bilməz. Bu təminat Preventiv qrupun üzvü qrupun tərkibindən çıxdıqdan sonra da qüvvədə qalır.

13-2.5. Preventiv qrupun üzvü saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə öz funksiyalarını həyata keçirərkən tutula və ya saxlanıla bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Preventiv qrupun üzvünün poçt, teleqraf və digər göndərişlərinin, habelə elektron yazışmalarının üzərinə həbs qoyulmasına, onların yoxlanılmasına və ya götürülməsinə yol verilmir.

**Maddə 13-3. Müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsinin xüsusiyyətləri**

13-3.1. Müvəkkil insan hüquq və azadlıqlarının təşviqi, müdafiəsi və təmini vəziyyətinin monitorinqi, pozuntu hallarının qarşısının alınması məqsədilə bu Qanunun 1.3-1-ci maddəsinə uyğun olaraq müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirir.

13-3.2. Müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi məqsədilə Müvəkkilin aparatında monitorinq qrupları yaradılır. Monitorinq qruplarının üzvləri bu Qanunun 13-2.1-ci maddəsində nəzərdə tutulmuş qaydada təyin olunurlar.

13-3.3. Müstəqil monitorinq mexanizmi funksiyalarını həyata keçirən zaman Müvəkkilin və monitorinq qrupunun aşağıdakı hüquqları vardır:

13-3.3.1. dövlət orqanlarında, bələdiyyələrdə və digər qurumlarda monitorinqlər həyata keçirmək, zəruri məlumatlarla (sənədlərlə, materiallarla) yerində tanış olmaq və surətlərini almaq;

13-3.3.2. dövlət orqanlarından, bələdiyyələrdən və digər qurumlardan, onların vəzifəli şəxslərindən zəruri məlumatları (sənədləri, materialları) və ya onların surətlərini tələb etmək və 5 iş günü müddətində almaq;

13-3.3.3. həyata keçirilən monitorinqin nəticələrini sənədləşdirmək;

13-3.3.4. dövlət orqanlarına, bələdiyyələrə və digər qurumlara, onların vəzifəli şəxslərinə monitorinqin nəticələri ilə əlaqədar tövsiyələr vermək;

13-3.3.5. vətəndaş cəmiyyəti institutlarını, müstəqil ekspertləri və mütəxəssisləri monitorinq qruplarının fəaliyyətinə cəlb etmək.

13-3.4. Müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi zamanı aşkar edilmiş insan hüquqlarının pozulması faktlarına bu Qanunun 12-ci, 13-cü, 13-1-ci və 15-ci maddələri ilə müəyyən edilmiş qaydada baxılır.”.

12. 14.2-ci maddədə “dövlət və yerli özünüidarə orqanlarının” sözləri “dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların” sözləri ilə əvəz edilsin.

*Ardı 3-cü səhifədə*

13. 15-ci maddə üzrə:
13.1. maddənin adı aşağıdakı redaksiyada verilsin:
**"Maddə 15. Müvəkkilin fəaliyyətində konfidensiallığın təmin olunması"**
13.2. 15.1-ci maddə aşağıdakı redaksiyada verilsin:
"15.1. Müvəkkilin fəaliyyəti ilə əlaqədar ona, Preventiv qrupun və müstəqil monitorinq qrupunun üzvlərinə, Müvəkkilin aparatının işçilərinə məlum olan dövlət sirri təşkil edən məlumatların, istintaq, məhkəmə, vergi, bank və kommersiya sirlərinin, eləcə də qanunla əldə olunmasına məhdudiyyət qoyulan digər məlumatların mühafizəsi bu sahədə münasibətləri tənzimləyən Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada həyata keçirilir.".
14. 16-cı maddə üzrə:
14.1. 16.1-ci maddədə "1920" rəqəmləri "2450" rəqəmləri ilə, "əmək haqqı" sözləri "vəzifə maaşı" sözləri ilə əvəz edilsin;
14.2. aşağıdakı məzmunda 16.1-1-ci maddə əlavə edilsin:
"16.1-1. Müvəkkilə aylıq vəzifə maaşının 1,5 misli həcmində vəzifə maaşına əlavə ödənilir.";
14.3. 16.5-ci maddə ləğv edilsin;
14.4. aşağıdakı məzmunda 16.5-1-ci maddə əlavə edilsin:
"16.5-1. Müvəkkil 5 illik vəzifə maaşı məbləğində icbari sığorta edilir.".
15. 17.3-cü maddədə "Aparat" sözü "Müvəkkilin aparatı" sözləri ilə əvəz edilsin.
16. 18-1-ci maddə ləğv edilsin.
17. 20-ci maddə aşağıdakı redaksiyada verilsin:
**"Maddə 20. Müvəkkilin, preventiv qrupun və müstəqil monitorinq qruplarının qanuni fəaliyyətinə maneə törədilməsinə görə məsuliyyət**
Müvəkkilin, preventiv qrup və müstəqil monitorinq qruplarının qanuni fəaliyyətinin məhdudlaşdırılması və ya fəaliyyətinə müdaxilə qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.".

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 5 oktyabr 2023-cü il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2007-ci il 25 oktyabr tarixli 90-III FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**
Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2007-ci il 25 oktyabr tarixli 90-III FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:
1. 8.1-ci, 8.4-cü, 8.6-cı, 9.2-ci, 9.4-cü, 9.7-ci və 9.16-cı yarımbəndlərdə "öz səlahiyyətləri daxilində" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin.
2. 8.8-1-ci yarımbənddə "öz səlahiyyətləri daxilində" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə, "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə, "açıqlanmasını" sözü "təşviqini" sözü ilə əvəz edilsin.
3. 8.11-ci yarımbənddə "sağlamlıq imkanları məhdud 18 yaşınadək" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.
4. 8.11-4-cü yarımbənddə "qanunvericiliyə" sözü "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa" sözləri ilə əvəz edilsin.
5. 8.11-6-cı yarımbənddə "qanunvericiliyə" sözü "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci və 14.2-ci maddələrinə" sözləri ilə əvəz edilsin.
6. Aşağıdakı məzmunda 8.11-8-ci yarımbənd əlavə edilsin:
"8.11-8. gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirmək;".
7. 8.19-cu yarımbənddən "öz səlahiyyətləri daxilində" sözləri çıxarılsın.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 5 oktyabr 2023-cü il*

## Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondunun yaradılması və əsasnaməsinin təsdiq edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, təbii ehtiyatlardan səmərəli istifadə olunması, mineral xammal bazasının bərpası, ətraf mühitin və yaşıllıqların mühafizəsinin təmin olunması məqsədilə **qərara alıram:**
1. Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu yaradılsın.
2. "Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).
3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.
4. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 5 oktyabr 2023-cü il*

## A.Y.Zeynalovun Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**
1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Yadulla oğlu Zeynalovun müraciəti nəzərə alınsın.
2. Azər Yadulla oğlu Zeynalov Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 5 oktyabr 2023-cü il*

## "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**
Naxçıvan Muxtar Respublikasında təhsil sahəsində səmərəli fəaliyyətinə görə Bəktaşi İltifat Məmməd qızına – **"Əməkdar müəllim"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 5 oktyabr 2023-cü il*

## "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının 2023-cü il 5 oktyabr tarixli 30-VI QN nömrəli Qanununun tətbiqi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 3-cü və 22-ci bəndini rəhbər tutaraq "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının 2023-cü il 5 oktyabr tarixli 30-VI QN nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**
1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:
1.1. Naxçıvan Muxtar Respublikası qanunlarının və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının 2023-cü il 5 oktyabr tarixli 30-VI QN nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;
1.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.
2. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) tövsiyə edilsin ki, "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının 2023-cü il 5 oktyabr tarixli 30-VI QN nömrəli Qanunundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 5 oktyabr 2023-cü il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2023-cü il 5 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu haqqında ƏSASNAMƏ

1. Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu (bundan sonra - Fond) haqqında Əsasnamə "Ətraf mühitin mühafizəsi haqqında" və "Yerin təki haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq hazırlanmışdır.
2. Fondun yaradılmasında əsas məqsəd ətraf mühitin mühafizəsində təxirəsalınmaz tədbirlərin görülməsi, ona vurulan zərərin aradan qaldırılması və kompensasiya verilməsi, ekoloji cəhətdən səmərəli yeni layihə və texnologiyaların işlənilməsi, tətbiqi, təbii ehtiyatlardan səmərəli istifadə olunması, təbiəti mühafizənin iqtisadi stimullaşdırılma məsələlərinin həllini təmin etməkdən, habelə yaşıllıqları mühafizə tədbirlərinin və ətraf mühitin mühafizəsi sahəsində digər tədbirlərin maliyyələşdirilməsindən, müəyyən olunmuş qaydada istifadəyə verilən faydalı qazıntı yataqlarının axtarışı, qiymətləndirilməsi və kəşfiyyatına dövlətin çəkdiyi xərclərin ödənilməsindən, muxtar respublikanın mineral-xammal bazasının bərpası məqsədi ilə aparılacaq geoloji-kəşfiyyat işlərinin əlavə maliyyələşdirilməsinin təmin edilməsindən ibarətdir.
3. Fond aşağıdakı daxilolmalar hesabına formalaşdırılır:
3.1. təbiətdən istifadəyə görə ödəmələr;
3.2. ətraf mühitin mühafizəsi haqqında (balıqçılıq istisna olmaqla) qanunvericiliyin pozulmasına görə alınan cərimələr;
3.3. müsadirə olunan ovçuluq alətlərinin və qeyri-qanuni əldə edilən məhsulların satışından daxil olan vəsaitlər;
3.4. yaşıllıqların götürülməsinə (kəsilməsinə), zədələnməsinə və ya məhv edilməsinə görə ödənilən bərpa dəyəri;
3.5. qrantlar, könüllü ianələr;
3.6. təbiətə dəymiş ziyana görə ödəmələr;
3.7. yerin təkinin istifadəyə verilməsinə dair auksion və ya müsabiqənin keçirilməsindən əldə edilən gəlirlər;
3.8. mineral-xammal bazasının bərpası və möhkəmləndirilməsinə dair geoloji-kəşfiyyat işlərinin aparılmasında vahid texniki siyasətin həyata keçirilməsi üçün yer təki istifadəçilərinin, müəssisələrin könüllü ödənişləri;
3.9. Mineral-xammal bazasının bərpasına ayırmalar;
3.10. Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunvericiliyinə zidd olmayan başqa daxilolmalar.
4. Mineral-xammal bazasının bərpasına ayırmalar kəşfiyyatı dövlət vəsaiti hesabına aparılmış bütün faydalı qazıntı növlərinin çıxarılmasına görə yer təki istifadəçilərindən alınır.
5. Ayırmaların dərəcələri eyni növ mineral-xammal hasil edən bütün yer təki istifadəçiləri üçün eynidir.
6. Mineral-xammal bazasının bərpasına ayırmaların miqdarı faktiki çıxarılmış faydalı qazıntılardan əldə olunan və realizə edilən birinci əmtəə məhsulunun dəyərindən (mədən vergisi nəzərə alınmadan) faizlə müəyyən edilir (mineral-xammal bazasının bərpasına ayrılmaların obyektləri və dərəcələri bu Əsasnaməyə əlavə olunur).
7. Dəyərindən ayırmalar tutulan məhsullara aşağıdakılar aiddir:
7.1. bilavasitə faydalı qazıntılar-yanar şistlər, filizlər, yeraltı sular (şirin, mineral, termal, yodlu-bromlu), inşaat materialları istehsalı üçün xammal, qeyri-filiz xammalı, pyezooptik xammal, qiymətli, yarımqiymətli və məmulat daşları;
7.2. qara, əlvan, nadir metalların, kimyəvi mineral-xammalın konsentratları, eləcə də nəcib metallar.
8. Yerin təki istifadəçiləri tərəfindən istismar edilən faydalı qazıntı yatağının müvafiq ehtiyatlarının axtarışı və kəşfiyyatına dövlətin çəkdiyi xərclərin tamamilə ödənildiyi yataqlarda hasil edilmiş faydalı qazıntıların dəyərindən ayırmalar tutulmur.
9. Dövlət Fonduna yönəldilən vəsaitlər müəyyən olmuş qaydada Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin xüsusi hesabında cəmlənir və bu Fonddan olan bütün maliyyələşmələr həmin qurum vasitəsilə həyata keçirilir.
10. Ayırmaların məbləği, eləcə də geoloji-kəşfiyyat işlərinin aparılması üçün yer təki istifadəçilərinin öz vəsaitləri hesabına

Ardı 4-cü səhifədə

faktiki çəkdiyi xərclərin məbləği məhsulun istehsalına dair məsrəflərə aid edilir.

11. Fondun vəsaiti yerli maliyyə orqanlarının xəzinədarlığında toplanır və Fonddan Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi ilə razılaşdırılmış təkliflər üzrə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Maliyyə Nazirliyinin birgə təsdiq etdiyi gəlir və xərc bölgüsü əsasında (təsdiq olunmuş protokol) Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən istifadə olunur. Eləcə də, Fondda toplanan vəsait mineral-xammal bazasının bərpası məqsədilə aparılan geoloji-kəşfiyyat işlərinin məqsədli maliyyələşdirilməsinə yönəldilir və mənfəət əldə etmək üçün istifadə oluna bilməz.

12. Fondun vəsaitlərinin 0,5 faizi sənaye əhəmiyyəti kəsb edən faydalı qazıntı yataqlarının ilkin açılmasının və kəşfiyyatının həvəsləndirilməsi üçün istifadə edilir.

13. Mineral-xammal bazasının bərpasına dair geoloji-kəşfiyyat işlərinin istiqamət və həcmləri Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırılır.

14. Köçürmələrin vaxtlı-vaxtında həyata keçirilməsinə Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzarət edir.

15. Fondun vəsaitləri aşağıdakı tədbirlər üçün istifadə edilir:

15.1. elmi-tədqiqat (o cümlədən, layihə-axtarış və təcrübi-metodiki) işlərinin aparılmasına, resursqoruyucu və ekoloji təmiz texnologiyalarının tətbiqinə;

15.2. təbiətin mühafizəsi obyektlərinin tikintisinin, yenidən qurulmasının maliyyələşdirilməsinə;

15.3. ətraf mühitin çirklənməsi nəticəsində dəymiş ziyanın və ekoloji tarazlığı pozulmuş təbii ekoloji sistemlərin bərpasına (o cümlədən, təbii obyektlərin və komplekslərin abadlaşdırılmasına, xüsusi mühafizə olunan təbiət ərazilərinin biotexniki planlarının layihələrinin hazırlanmasına və yerinə yetirilməsinə);

15.4. çirklənmə və başqa mənfi təsirlər nəticəsində vətəndaşların sağlamlığına və ətraf mühitə vurulmuş zərərin bərpasına görə onlara müəyyən edilmiş kompensasiyanın verilməsinə;

15.5. Naxçıvan Muxtar Respublikasının ərazisində ətraf mühitin qorunması, təbiətdən istifadənin təşkili, təbii sərvətlərdən səmərəli istifadə edilməsi və onların bərpası, hidrometeoroloji proseslərin müşahidəsi və proqnozlaşdırılması, torpaqların münbitliyinin bərpası və artırılması ilə bağlı dövlət proqramlarının və layihələrin həyata keçirilməsinə, normativ-metodiki sənədlərin, normativ və texniki normativ-hüquqi aktların işlənməsinə;

15.6. ekoloji maarifləndirmə və təhsilə (o cümlədən cəmiyyətdə ekoloji bilik və tərbiyənin təbliğinə, habelə konfrans və tədbirlərin keçirilməsinə);

15.7. xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsinə;

15.8. yaşıllıqların mühafizəsinə, o cümlədən onların istifadəsinə, qorunmasına, bərpasına və genişlənməsinə yönəldilmiş tədbirlərin maliyyələşdirilməsinə;

15.9. nadir və nəsli kəsilməkdə olan fauna və flora növlərinin mühafizəsinə və bərpasına;

15.10. ətraf mühitin mühafizəsi, ekologiya və geoloji kəşfiyyat sahəsində fəaliyyət göstərən dövlət orqanlarının maddi-texniki bazasının yaradılmasına və inkişafına (o cümlədən, texnoloji qurğuların, cihazların, avadanlıqların, nəqliyyat vasitələrinin, qeyri-maddi aktivlərin, mal-materialların və ləvazimatların alınmasına, əsaslı və cari təmirinə);

15.11. ətraf mühitin dövlət monitorinqinin təşkili və keçirilməsinə, dövlət kadastrının aparılmasına;

15.12. ətraf mühitin mühafizəsi, ekoloji ekspertiza və geologiya sahəsində çalışan mütəxəssislərin həvəsləndirilməsi məqsədilə onların maddi stimullaşdırılmasına (o cümlədən, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin işçilərinin kollektiv və ya fərdi qaydada mükafatlandırılmasına, habelə müqavilə ilə işləyən mütəxəssis, ekspert və texniki işçilərə görə pul ödənişlərinə);

15.13. müəyyən olunmuş qaydada istifadəyə verilən faydalı qazıntı yataqlarının axtarışı, qiymətləndirilməsi və kəşfiyyatına dövlətin çəkdiyi xərclərin ödənilməsi;

15.14. mineral-xammal bazasının bərpası məqsədilə aparılacaq geoloji-kəşfiyyat işlərinin əlavə maliyyələşdirilməsi.

16. Sosial təminat və maddi həvəsləndirməyə yönəldilən vəsaitin məbləği fondun vəsaitinin 5 faizindən çox olmamalıdır.

17. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarının pozulmasına görə fiziki və hüquqi şəxslər tərəfindən ödənilən cərimələrdən, "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulmasına görə yer təkinə dəymiş ziyanlardan daxil olan vəsaitin 25 faizindən Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ətraf mühitin mühafizəsinə dövlət nəzarətini həyata keçirən və ətraf mühitdən istifadənin tənzimlənməsi, ekoloji ekspertiza və geologiya sahəsində çalışan əməkdaşlarının aylıq vəzifə maaşlarına əlavənin verilməsi üçün istifadə edilir.

18. Fonda daxil olan vəsaitin 7 faizi dövlət büdcəsinə köçürülür.

19. Muxtar respublika və regional əhəmiyyətli ətraf mühitin mühafizəsi tədbirlərinin keçirilməsinin maliyyələşdirilməsi, vəsaitin əvəzsiz formada ayrılması ilə həyata keçirilir.

20. Fonddan istifadə olunması haqqında ilin yekunlarına görə hesabat Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanıb Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə təqdim olunur.

21. Fondda olan vəsaitlərdən səmərəli istifadə olunmasına Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi nəzarət edir.

22. İl ərzində istifadə olunmamış Fond vəsaiti növbəti ilin hesabına keçirilir və Fondda saxlanılaraq ləğv edilməsinə yol verilmir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 5 oktyabr tarixli 206-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu haqqında Əsasnaməyə

ƏLAVƏ

## Mineral-xammal bazasının bərpasına ayırmaların obyektləri və dərəcələri

| Faktiki qazıntıların növləri | Faktiki qazıntılardan əldə olunan və realizə edilən birinci əmtəə məhsulunun dəyərindən ayırmaların, faizlə |
|---|---|
| Yanar şistlər | 3,0 |
| Qara metallar (dəmir filizi, hematit, manqan) | 2,0 |
| Əlvan və nadir metallar (mis, sink, qurğuşun, civə, kobalt, molibden, alüminium xammalı) | 3,0 |
| Nəcib metallar (qızıl, gümüş) | 5,0 |
| Qeyri-filiz faydalı qazıntılar: | 4,0 |
| mişar daşı | |
| üzlük daşları (mərmər, qabbro, tuflar, travertin, mərmərləşmiş əhəng daşı və s.) | 3,0 |
| seolit | 4,0 |
| barit | 4,0 |
| bentonit gilləri | 4,0 |
| kaolin, odadavamlı gillər | 3,0 |
| kərpic, kirəmit, keramzit, aqloporit istehsalı üçün gillər | 2,0 |
| vulkan külü ilə pemza | 2,0 |
| mineral piqmentlər | 3,0 |
| kvars qumları | 2,0 |
| tikinti qumları (o cümlədən bitumlaşmış) | 2,0 |
| sement xammalı (əhəng daşı, mergel, gil) | 3,0 |
| daş və göl duzu | 2,0 |
| çınqıl, çınqıl-qum qarışığı | 3,0 |
| qiymətli, yarımqiymətli və məmulat daşları, pyezooptik xammalı | 3,0 |
| gips, gəc | 4,0 |
| Yeraltı sular: | |
| yodlu-bromlu sular | 3,0 |
| mineral-termal sular | 3,0 |
| şirin sular | 3,0 |

# Naxçıvanda ilk dəfə Karyera Forumu keçirilib




Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə keçirilən Forumda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev, Naxçıvan Muxtar Respublikasının təhsil nazirinin səlahiyyətlərini müvəqqəti icra edən Ovni Muradov, Naxçıvan Muxtar Respublikasının gənclər və idman nazirinin səlahiyyətlərini müvəqqəti icra edən Məcid Seyidov, Naxçıvan Muxtar Respublikası rabitə və yeni texnologiyalar nazirinin səlahiyyətlərini müvəqqəti icra edən Rahid Ələkbərli, dövlət və özəl qurumların nümayəndələri, karyera məsləhətçiləri, yerli və xarici spikerlər, insan resursları mütəxəssisləri, təhsil ekspertləri və digər qonaqlar iştirak ediblər.

"Qədim diyarda yeni fürsətlər" devizi ilə keçirilən Forumun məqsədi peşəkar kadrların yetişdirilməsi, kadr ehtiyaclarının qarşılanması, əmək bazarına keçidin asanlaşdırılması və peşəkar bacarıqların inkişaf etdirilməsidir.

Anar Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq ölkəmizdə son illər aparılan sosial islahatlar, əmək bazarının inkişafı, aktiv məşğulluq proqramlarının genişləndirilməsi üçün atılan addımları diqqətə çatdırıb. O, son 5 ildə qeyri-formal məşğulluqla mübarizə sahəsində aparılan tədbirlər nəticəsində əmək müqavilələrinin sayında 35 faiz artım olduğunu qeyd edib.

Bildirilib ki, tarixi qələbəmizlə başa çatan Vətən müharibəsindən sonra şəhid ailələri, müharibə iştirakçıları və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial dəstək tədbirləri ilə əhatə edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib və 124 min şəxsə 300 mindən çox xidmət göstərilib.

DOST konsepsiyasından da danışan Anar Əliyev artıq 6 DOST Mərkəzinin fəaliyyət göstərdiyini, yaxın zamanda Naxçıvan şəhərində də Mərkəzin istifadəyə veriləcəyini qeyd edib.



Vurğulanıb ki, məşğulluq sistemində də dərin islahatlar həyata keçirilir. Son 5 ildə məşğulluq orqanları tərəfindən 1 milyondan çox şəxslə müxtəlif istiqamətlər üzrə iş aparılıb. Məşğulluq xidmətləri sahəsində innovativ həllərin tətbiqi




və rəqəmsallaşdırma işlərindən bəhs olunub. Bu ilin may ayında əmək və məşğulluq sahəsində islahatların yeni mühüm mərhələsinə keçidi təmin edən "Əmək və Məşğulluq" altsisteminin istifadəyə verildiyi qeyd olunub.

Dövlət Məşğulluq Agentliyi tərəfindən peşə hazırlığı sistemində səmərəliliyin artırılması məqsədilə Regional Peşə Hazırlığı mərkəzlərinin modernləşdirilməsi, mərkəzlərin sayının ölkə üzrə 10-a çatdırılması, kursların beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması və özəl tədris mərkəzlərinin prosesə aktiv cəlb edilməsi istiqamətində işlər davam etdirilir. Cari ilin ötən dövrü ərzində 9 minə yaxın şəxs peşə hazırlığına cəlb olunub.

Peşəyönümü məsləhət xidməti sahəsində bir sıra layihələrin həyata keçirildiyi, 136 mindən çox şəxsə xidmət göstərildiyi və məsləhət xidməti, karyera planlamasının rolunun artırılması istiqamətində işlərin də davam etdirildiyi bildirilib.

Qeyd olunub ki, bu Forum əmək bazarının tənzimlənməsi, kadr potensialının gücləndirilməsi, gələcəyin ən vacib əmək bacarıqları və onlara yiyələnmək yolları barədə müzakirə platforması yaratmağa imkan verir.

Forum müddətində 4 yerli və 2 xarici spikerin iştirakı ilə "Bilməmək eyib deyil, peşəkardan soruşmamaq eyibdir", "Bacarıq əmək bazarının cövhəridir" və "Dövr elə bu dövrdür" adlı 3 panel üzrə "Karyera planlaması işinə niyə investisiya edilməlidir?", "Effektiv karyera mərkəzlərinin formalaşdırılması", "Bu günün və sabahın əmək bazarının bizdən gözləntiləri nədir?", "Bacarıqların gələcəyi, gələcəyin bacarıqları", "Karyera inkişafında dövlət-özəl əməkdaşlığının perspektivləri", "Karyera yüksəlişində koorporativ mədəniyyət" mövzularında peşəkar zəmində müzakirələr aparılıb, spikerlərlə iştirakçıların birgə əməkdaşlığı nəticəsində icmallar hazırlanıb.

**Xəbərlər şöbəsi**

# Beynəlxalq Müəllimlər Günü qeyd edilib







*Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində 5 oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbir keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxış edərək ölkəmizdə olduğu kimi muxtar respublikada da Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı silsilə tədbirlər keçirilməsindən, həmin tədbirlərdə təhsil işçilərinin də fəal iştirakından danışıb.

Müasir dövrün tələblərindən, ölkəmizdə həyata keçirilən təhsil strategiyasından bəhs edən Samir Seyidəhmədli bildirib ki, təhsil sisteminin başlıca vəzifələrindən biri də ölkənin modernləşdirilməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla da Azərbaycan Respublikasının beynəlxalq rəqabət qabiliyyətini yüksəltməkdir. Azərbaycan Respublikasının təhsilin inkişafı üzrə dövlət strategiyasında 5 strateji istiqamətdən biri də təhsil sahəsində insan resurslarının müasirləşdirilməsidir. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən təhsilin məzmununun səmərəli mənimsənilməsini bacaran səriştəli təhsilverənlərin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsini, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsini cəmləşdirir.

Çıxışda son illərdə müəllimin nüfuzunun, peşəkarlıq səviyyəsinin yüksəldilməsi, istedadlı insanların müəllim peşəsinə cəlb edilməsi istiqamətində görülən işlərdən bəhs olunub. Vurğulanıb ki, 2018-ci ildən etibarən Naxçıvan Muxtar Respublikasında müəllimlərin işə qəbulu prosesi müsabiqə yolu ilə aparılır. Növbəti ildən etibarən bu prosesə ölkədəki yanaşma tətbiq olunacaq. Müəllimlərin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi və təlim ehtiyaclarının müəyyənləşdirilməsi məqsədilə 2014-cü ildən etibarən ümumi təhsil müəssisələrində çalışanların bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinə başlanılıb, işə qəbul prosesi təkmilləşdirilib, müəllimlərin əməyinin stimullaşdırılması məqsədilə davamlı tədbirlər həyata keçirilib. 2022-ci il yanvarın 1-dən dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının qiymətləndirilməsi aparılmış müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin aylıq vəzifə maaşları orta hesabla 20 faiz, gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin aylıq vəzifə maaşları orta hesabla 40 faiz, dövlət peşə təhsili müəssisələrində idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları orta hesabla 20 faiz artırılıb. Həmçinin ümumi təhsil müəssisələrinin direktor və direktor müavinlərinin vəzifə maaşlarına təhsilalanların sayına, təhsilverənlərin maaşlarına isə sertifikatlaşdırmanın nəticəsinə görə aylıq əlavələr edilib.

Qeyd olunub ki, ölkə Prezidentinin Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda da təhsilin keyfiyyətinin artırılması məqsədilə vacib məsələlər yer alıb. Hazırda bu məsələlərin icrası istiqamətində addımlar atılır və əminliklə demək olar ki, qarşıdakı 4 il ərzində müəllimlərin sosial rifahı, bu peşənin nüfuzunun artırılması yönündə çoxşaxəli işlərin həyata keçirilməsinin şahidi olacağıq. Tarixi torpaqlarımızın bütövlüyünün qorunması istiqamətində dövlət başçısının rəhbərliyi ilə atılan hər bir addımda, hər bir tədbirin icrasında məhz müəllimlərin zəhməti hesabına yetişən övladların da rolu olduğunu vurğulayan səlahiyyətli nümayəndənin müavini Samir Seyidəhmədli 5 oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə bütün müəllimləri təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Ovni Muradov çıxışında bildirib ki, muxtar respublikada təhsilə göstərilən dövlət qayğısı, tədrisin yüksək səviyyədə təşkili üçün yaradılan müasir təhsil infrastrukturu, informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin təhsilə tətbiqi, müəllim nüfuzunun artırılması istiqamətində həyata keçirilən tədbirlər müəllim əməyinin bəhrəsini artırıb, təhsildə uğurlu nəticələr əldə olunub. Muxtar respublikada keyfiyyətli tədris mühitində öz sənətini sevən kifayət qədər peşəkar müəllimlər formalaşıb. Bunların sırasında 1600-dən artıq gəncin olması onları bir araya gətirəcək birliyin yaradılmasına zərurət yaradıb. 2021-ci ildə yaradılan “Naxçıvan Gənc Müəllimlər Assosiasiyası” gənc müəllimlər arasında əməkdaşlığı, təcrübə mübadiləsini daha da inkişaf etdirib, gənc müəllimlərin fəallığını artırıb, onların peşəkar və fərdi inkişaflarına öz töhfəsini verib.

Tədbirdə Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Məlahət Rüstəmova və Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbin gənc müəllimi Nigar Quliyeva pedaqoji fəaliyyətin əhəmiyyətindən danışıb, təhsilə, müəllim əməyinə verilən yüksək qiymətə görə minnətdarlıq ediblər.

Sonra təhsil sahəsində səmərəli fəaliyyəti ilə seçilən müəllimlərə Fəxri fərman və gül dəstəsi təqdim olunub, bədii kompozisiya nümayiş edilib.

**Nail ƏSGƏROV**

# Naxçıvan teatrının 141-ci mövsümünün açılış mərasimi olub



*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında Naxçıvan teatrının 141-ci mövsümünün açılış mərasimi keçirilib.*



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən Seyidov Naxçıvan teatrının keçdiyi inkişaf yolundan, ölkəmizdə teatrın inkişafına göstərilən dövlət qayğısından danışıb. Bildirilib ki, yüksək ehtiram və dərin minnətdarlıq hissi ilə qeyd olunan “Heydər Əliyev İli” çərçivəsində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin Tədbirlər Planına uyğun olaraq Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı Ulu Öndərə həsr edilmiş Aqşin Babayevin “Xilaskar”əsəri əsasında eyniadlı tamaşa hazırlayıb. Ümumilikdə, ötən mövsüm Naxçıvan teatrı 4 yeni tamaşa ilə 140 illik yubileyə öz töhfəsini verib.

Ölkə başçısının “Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncamının icrası ilə bağlı Naxçıvan Dövlət Milli Dram Teatrında “Təməl”, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında “Sınaq” teatr studiyalarının yaradıldığını diqqətə çatdıran Həsən Seyidov yeni mövsümdə qarşıya qoyulan məqsədlərdən də danışıb. Diqqətə çatdırılıb ki, Naxçıvan teatrı yeni yaradıcılıq mövsümündə Elçin Əfəndiyevin “Şekspir”, Jan Batist Molyerin “Skapenin kələkləri” əsərləri əsasında səhnələşdirilən tamaşalarla izləyici qarşısına çıxacaq.

Sonra Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyev məddah libasında səhnəyə çıxaraq nağılvari dillə Naxçıvan Teatrının yaranmasından, ziyalıların teatrın inkişafında gördüyü işlərdən danışıb.

Tədbirin bədii hissəsində Mirzə Fətəli Axundzadənin “Sərgüzəşti-vəziri-xani-Lənkəran” komediyası əsasında səhnələşdirilən tamaşa nümayiş olunub.

Qeyd edək ki, “Sərgüzəşti-vəziri-xani-Lənkəran” əsəri Azərbaycan teatrı səhnəsində tamaşaya qoyulmuş ilk əsərdir. Hadisələr Lənkəran xanının vəziri Mirzə Həbibin evində və xanın sarayında cərəyan edir. Tamaşada səriştəsiz xan və vəzirinin yarıtmaz əməlləri gülüş hədəfinə çevrilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Görüş keçirilib



*Naxçıvan Muxtar Respublikasına ikigünlük səfər edən UNICEF-in Azərbaycandakı Nümayəndəliyinin Uşaq Müdafiəsi Proqramının rəhbəri Vüqar Salmanov Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova ilə görüşüb.*

Görüşdə qonağı salamlayan komitə sədri qeyd edib ki, ölkəmizdə həyata keçirilən dövlət uşaq siyasətinin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilir. Muxtar respublikada uşaq hüquqlarının qorunması və bu istiqamətdə görülən işlərin prioritetlər sırasında olduğu və ölkədə həyata keçirilən dövlət uşaq siyasətinin muxtar respublikada da uğurla həyata keçirildiyi bildirilib. Ramilə Seyidova muxtar respublikada yaşayan uşaqlar, o cümlədən sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum, tək valideynli uşaqların hüquqlarının qorunması ilə bağlı Komitə tərəfindən mütəmadi görülən işlər, aparılan monitorinqlər, maarifləndirici tədbirlər haqqında ətraflı məlumat vermiş və UNICEF-in Azərbaycandakı Nümayəndəliyi ilə birgə əməkdaşlığın vacibliyini vurğulamışdır.

UNICEF-in Azərbaycandakı Nümayəndəliyinin Uşaq Müdafiəsi Proqramının rəhbəri Vüqar Salmanov ölkədə aparılan uşaq siyasəti və uşaqların müdafiəsi ilə bağlı UNICEF-in Azərbaycandakı Nümayəndəliyi tərəfindən icra olunan layihələr haqqında məlumat vermiş, uşaqlarla bağlı mövcud problemlər müzakirə olunmuş, gələcək perspektivlər barədə fikir mübadiləsi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Tələbələrin Təhsil Tələbə Krediti Fondundan istifadə imkanlarına dair görüş



Naxçıvan Dövlət Universitetində təşkil edilən görüşdə ali təhsil ocağının rektoru Elbrus İsayev çıxış edərək dövlətin təhsil sahəsində həyata keçirdiyi layihələrdən danışıb. Vurğulanıb ki, Təhsil Tələbə Kredit Fondu Prezident cənab İlham Əliyevin 2021-ci il 17 iyun tarixli Fərmanı ilə təsis olunub və bu fondun yaradılması ölkəmizdə təhsilə dövlət qayğısının ən bariz nümunələrindən biridir. O, çıxışında TTKF-nin tələbələr üçün yaratdığı imkanlar, ali təhsilə əlçatanlığın təmin edilməsi və təhsildə bərabər imkanların yaradılması kimi mühüm missiyalara xidmət etdiyini iştirakçıların diqqətinə çatdırıb.

Təhsil Tələbə Krediti Fondunun idarə heyətinin sədri Araz Paşayev fondun yaranma tarixi, məqsədi haqqında geniş məlumat verib. Bildirilib ki, fondun yaradılmasında əsas məqsəd əhalinin aztəminatlı təbəqəsindən olan şəxslərin təhsili üçün bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirməkdir.

Vurğulanıb ki, təhsil tələbə kreditinin növləri, tələbə krediti almaq üçün verilən tələblər, kreditdən istifadə hüququ, kreditin verilməsinə dair tələblər və tətbiq edilən güzəştlər müəyyən edilib. Təhsil tələbə kreditinin sosial və standart növləri mövcuddur, krediti almaq üçün tələbə girov, zamin, borcalan, ümumiyyətlə, heç bir öhdəliklər yüklənmir.

Görüşdə çıxış edən universitetin Mühasibat uçotu şöbəsinin müdiri Ülvi Baxışlı bildirib ki, ali təhsil ocağında 2021-2022-ci akademik tədris ilindən TTKF ilə bağlı komissiyanın tərkibi müəyyənləşdirilərək fəaliyyətə başlayıb, ötən müddət ərzində, ümumilikdə, 541 tələbə kreditlə bağlı müraciət edib ki, bunun 136 nəfəri sosial, 311 nəfəri isə standart olmaqla, 447 tələbənin krediti rəsmiləşdirilib.

Diqqətə çatdırılıb ki, kreditlər verilən ilkin mərhələdə giriş balları nəzərə alınmaqla yüksək nəticə göstərilməsi başlıca şərtdir. Kredit məbləği birbaşa tələbəyə deyil, ali təhsil aldığı müəssisəyə verilir. Hər hansı səbəbdən götürdüyü krediti geri qaytara bilmədikdə tələbəyə möhlət hüququ da verilir.

Sonda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# ENNA məhsulları Moskvada keçirilən Beynəlxalq Qida Sərgisində nümayiş olunub




Rusiyanın ən böyük ticarət, sərgi və biznes mərkəzinin “Kroks Ekspo” Ticarət-Sərgi Salonunda baş tutan tədbirdə, ümumilikdə, 39 ölkə və Rusiyanın 56 regionu iştirak edir. “32-ci Payız Beynəlxalq Qida məhsulları” sərgisi WORLD-FOOD MOCKOW 2023 salonunda yerləşdirilən stenddə Qafqazın ilk enerji içkiləri istehsalçısı olan ENNA Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal olunan “PlusOver”, “Dinamit”, “Buz Tea” içkiləri nümayiş olunub. Sərgidə məhsulların tanıtımı həyata keçirilib. 20 000-dən çox ziyarətçinin olduğu sərgidə potensial müştərilərlə danışıqlar aparılıb.

Belə sərgilərdə ardıcıl iştirak etməkdə məqsəd Azərbaycan məhsullarının Rusiya bazarında yer alması, ixracın artırılması və Azərbaycan brendinin dünyada tanıdılmasıdır.

**Xəbərlər şöbəsi**

Əfsanəyə dönən ömürlər

# Cismi məzara sığacaq qədər kiçik olsa da, şərəfi tarix yazacaq qədər böyük oldu

30 illik həsrətə son qoyan 44 günlük Vətən müharibəsi bizə Böyük Qələbə sevincini yaşatdı. Bu gün artıq Azərbaycanın tarixi torpaqlarında üçrəngli bayrağımız dalğalanır. Bu tarixi Qələbədə şəhidlik zirvəsinə ucalanlar, öz sağlamlığını itirərək yurd-yuvasına qazi kimi qayıdan igidlərimizi minnətdarlıqla xatırlayırıq. Onlardan biri də Xansu Qurbanov olub. Bu günlərdə qəhrəman şəhidimizin ailəsini ziyarət etdik, şəhid anası ***Yəmən Abbasova*** ilə həmsöhbət olduq. Şəhid anasının dediklərindən: – Evimin balaca oğlu Xansu 2000-ci il 23 sentyabrda Naxçıvan şəhərində anadan olmuşdu. 2006-2017-ci illərdə Naxçıvan şəhəri 15 nömrəli tam orta məktəbdə təhsil almışdı. Hərbi xidmətini başa vuran Xansu könüllü olaraq orduda qalıb kəşfiyyatçı kimi xidmət edirdi. 2020-ci il oktyabrın 6-da Qarabağa yola düşən ilk könüllülərin cərgəsinə qatılmışdı. Yəmən xanımın sözlərinə görə, Xansu döyüşə yollanmadan əvvəl evə gəlib ailəsi ilə görüşür. Xansunun anasına son sözləri o olur ki, ana, mən gedirəm. Hər şey olar, mən şəhid də ola bilərəm. Amma nə olur-olsun, sən ağlama… Sevin ki, mən tarix yazan qəhrəmanlardan olacağam, təki Vətən sağ olsun!



Xansunun son telefon danışığı bacısı Xatunla olur. 27 oktyabrda bacısı ilə danışan Xansu ona deyir ki, artıq Şuşaya yol almışıq, tezliklə sizə qələbə müjdəsi verəcəyəm...

Naxçıvan xüsusi təyinatlılarının kəşfiyyatçısı sırasında yer alan Xansu döyüşə başladığı ilk günlərdə Hadrut, Suqovuşan uğrunda gedən döyüşlərdə xüsusi fərqlənir. Döyüşlərin birində neytral zonada yaralanmış yoldaşlarından birini təkbaşına kürəyinə alıb sürünərək səngərdən çıxarır.

O, Şuşa şəhəri uğrunda gedən döyüşdə də qəhrəmanlıq göstərib, şəhər azad olunduqdan sonra, noyabrın 9-da düşmənin amansız gülləsinə tuş gələrək şəhidlik zirvəsinə yüksəlib. Xansunun ən böyük arzularından biri Şuşanı azad görmək idi. Və bu arzusuna çataraq şəhadət qazandı... Xansu Qurbanovun nəşi 2020-ci il noyabrın 13-də Naxçıvana gətirilib, dövlət rəsmiləri, yerli əhali tərəfindən izdihamla, böyük ehtiramla qarşılanaraq Naxçıvan şəhər qəbiristanlığında dəfn olunub. Elimizin bu igid oğlunun döyüş şücaəti dövlət başçımız tərəfindən yüksək qiymətləndirilib. Ölümündən sonra “Vətən uğrunda”, “Şuşanın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” medalları, 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilib.

...Şəhidimizin cismi məzara sığacaq qədər olsa da, şərəfi tarix yazacaq qədər böyük oldu. Anası Yəmən xanım Xansu şəhid olduğu gündən onunla bağlı arzularını bir dəftərə yazır. Subay oğlunu bəy kostyumunda görmək Yəmən xanımın ən böyük arzularından biri idi...

Öz ölümü ilə əbədiyyət qazanan Xansunun adı qəlbimizdə daim yaşayacaq. Xalqın sevgisi, dövlətimizin hər zaman onun ailəsinə qayğı göstərməsi, bütün şəhid ailələri kimi bu ocağa da ən böyük təsəllidir. Hazırda Qurbanovlar ailəsi dövlətimiz tərəfindən verilən yeni evdə yaşayır. Şəhidin ruhu yaşayan evdən ayrılarkən Yəmən xanımın etdiyi söhbəti heç unuda bilmirəm: – Mən onu yuxularımın birində şəhid Vəli Quliyevlə birgə deyib-güldüyünü gördüm. Vəli onu qucaqlayıb: – Oğlun ən uca məqama çatıb, anacan, o bizə əmanətdir, narahat olma, – dedi. Bu yuxudan sonra mən bildim ki, oğlumun və digər şəhid balalarımın ruhu şaddır.



*Biz də şəhər qəbiristanlığında şəhidimiz Vəli Quliyevin və Xansu Qurbanovun yanaşı məzarlarını ziyarət edərək şəhidlik zirvəsinə ucalan qəhrəmanların ruhları qarşısında fəxrlə, ehtiramla baş əydik! Bu azad Vətən torpağı sizi qoynunda daim yaşadacaq! Ruhunuz qələbə müjdələrimizlə hər zaman anılacaq! Təki Vətən sağ olsun!*

## Şəhid məzarı ziyarət edilib



Babək rayon Nehrəm qəsəbəsində Birinci Qarabağ müharibəsi zamanı şəhadətə yüksələn leytenant Zamin Allahverdioğlu və 44 günlük Vətən müharibəsi zamanı şəhid olan leytenant Ümid Məmmədovun məzarı ziyarət edilib, “Qurani-Kərim”dən ayələr oxunub.

Şəhidlərimizin məzun olduqları tam orta məktəblərdə də onlar yad edilib və bununla bağlı tədbirlər keçirilib. Tədbirdə Babək Rayon İcra Hakimiyyətinin əməkdaşları, dövlət orqanlarının nümayəndələri və şəhidlərin ailə üzvləri iştirak ediblər.

Tədbirdə Ümummilli Lider Heydər Əliyev və ölkəmizin ərazi bütövlüyünün bərpası zamanı canından keçən qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Çıxış edənlər Vətənin qəhrəman oğullarının əziz xatirəsinin hər zaman yüksək tutulacağından və mütəmadi olaraq belə tədbirlərin keçirilməsinin mahiyyətindən danışıblar.

**Bülbül QULİYEVA**

Ailə təsərrüfatlarımız

# Balın faydaları saymaqla bitmir





*Arıçılıq kənd təsərrüfatının iqtisadi cəhətdən gəlirli və perspektivli sahələrindən biridir. Bal, arı mumu, arı südü, arı zəhəri, polen və propolis kimi insan sağlamlığı və rifahı üçün ən dəyərli məhsullar bu sahədən əldə edilir. Arıçılıq sahəsi qidalanma baxımından son dərəcə qiymətli məhsulların istehsal və toplanması ilə yanaşı, təbii və mədəni bitkilərdə göstərdiyi tozlandırma xidmətləri ilə təbii tarazlığa və kənd təsərrüfatı istehsalına da töhfə verir. Ölkəmiz üçün arıçılıq mühüm əhəmiyyət kəsb edir. Cəmiyyətin hər bir üzvü tərəfindən qazanc əldə etməyin asan yolu olan arıçılıq ən ucuz məşğulluğu təmin etdiyi üçün günümüzün ən vacib kənd təsərrüfatı fəaliyyətlərindən biridir. Ölkəmizin çox zəngin bitki örtüyünə və müxtəlif iqlim qurşaqlarına sahibliyi arıçılığın inkişafına geniş imkanlar açır.*

Muxtar respublikamızda arıçılıqla məşğul olan ailə təsərrüfatçıları kifayət qədərdir. Burada arıçılığın inkişafına göstərilən xüsusi diqqət, bu sahə üçün subsidiyaların, ehtiyac olan dərman vasitələrinin pulsuz verilməsi arıçıları daha da həvəsləndirir.

Naxçıvan şəhər sakini, ailə təsərrüfatçısı ***İmran Məmmədov*** 1982-ci ildən arıçılıqla məşğuldur. 120 arı ailəsinə qulluq edən müsahibim bal süzümü mərhələsini başa çatdırdığını bildirir. Müsahibim bu mərhələdən danışdı: – Arıçılıqda bal süzümü mövsümü içərisində alınan bal çeşidinə görə fərqli zamanlarda olur və müəyyən mərhələləri əhatə edir. Süzülmüş balın istehsalı zamanı mühüm proses olan süzülmə mərhələsində bəzi üsullardan istifadə edilir. Bu prosesdən əvvəl pətəklər və onların dolu olubolmadığı yoxlanılır. Əgər daraqlar doludursa, filtrasiya prosesinə başlamaq mümkündür. Bu proses həm diqqətlə, həm də təbii şəkildə aparılmalıdır. Əvvəldən sona qədər izlənilməsi lazım olan bir neçə mərhələdən ibarət olan bu prosesi tətbiq edərkən təbii filtrasiyadan istifadə edilməlidir. Balı süzərkən ilk addım doldurulmuş pətəkləri çıxarmaqdır. Bu, ehtiyatlı olmağı tələb edir, çünki pətəklərin strukturunu qorumaq vacibdir. Növbəti mərhələdə bal pətəklərinin üzərindəki nazik təbəqəni xüsusi alətlə sürtmək lazımdır. Beləliklə, bal daraqlardan çıxarılır.



Böyük miqdarda bal süzülməlidirsə, bu halda xüsusi maşınlardan istifadə olunur. Maşın balı çıxarmaq üçün daraqları döndərir. Bu proses balı cazibə qüvvəsi ilə daraqlardan ayırmağa imkan verir. Pətəklər çox deyilsə, xüsusilə evdə bal süzülməlidirsə, cuna və ya parça istifadə etmək tövsiyə olunur. Altına qab qoyularaq bal süzülür. Süzülmüş balı bir az “dincəltmək” lazımdır. “İstirahət dövründə” bal daha şəffaf olur və istifadəyə hazır olur. Son mərhələyə doğru son filtrləmə prosesi baş verir. Kiçik torlu süzgəcdən keçirilir və yad materiallardan və mum parçalarından ayrılır. Son mərhələdə istehlak üçün bal qabları və bağlamaları hazırlanır. Uyğun qablara qoyulan ballar əvvəlcə quru və qaranlıq yerdə saxlanılır, sonra isə satışa çıxarılır.

Müsahibim qeyd edir ki, yüksək məhsuldarlıq olması üçün arıların sağlam və güclü olması, vaxtlı-vaxtında köç etməsi vacibdir. Bal süzümünü avqust ayında başa çatdırdığını deyən təsərrüfatçı ondan bal, çiçək tozu, propolis, vərəmum kimi məhsullar əldə etdiyini bildirib. Naxçıvanda keçirilən bütün bal yarmarkalarında iştirak etdiyini deyən İmran Məmmədov belə tədbirlərin təşkilinin arıçılara böyük dəstək olduğunu və bal satışını həyata keçirməkdə kömək etdiyini deyir. 2018-ci ildə keçirilən “Arıçılıq məhsulları – bal festivalı”nda “Ən yaxşı arıçılıq məhsulları – bal” nominasiyası üzrə ikinci yeri tutduğunu xatırladan müsahibim müştərilərinin inamını qazandıqlarını bildirir.

Balın insan orqanizmi üçün faydalarından danışan müsahibim deyir: – Bal arıların çiçəkli bitkilərdən istifadə edərək istehsal etdiyi şirin qidadır. Onun çeşidləri arıların yerləşdiyi arazidən, mövsümdən və istifadə etdikləri çiçək növündən asılı olaraq dəyişir. Balın tərkibində müxtəlif vitaminlər, minerallar, amin turşuları, dəmir, sink vardır. Ürək sağlamlığı üçün qrip infeksiyaları və soyuqdəymədə istifadə olunur. Tərkibindəki vitamin və minerallar bədəni iltihabdan qoruyur, öskürəyin qarşısını alır, yaddaşı gücləndirir. Bir çox insanlar süfrə şəkəri yerinə bala üstünlük verir. Bal həddindən artıq istehlak edildikdə qan şəkərini artıra bilər, lakin bu, süfrə şəkərinin təsirindən daha azdır. Süfrə şəkəri qədər təsiri olmasa da, şəkərli diabet xəstələri bal istehlakına diqqət yetirməlidirlər.

Bazarda normal şərbətlə qarışdırılmış, şəkəri yüksək olan bal məhsullarına diqqət yetirərək təbii balı seçmək çox vacibdir. Müsahibim bu haqda deyir ki, balın keyfiyyəti onun saxta və ya qatqısız olmasından asılıdır. Əgər ılıq suya əlavə etdiyiniz bal həll olunmamış qalırsa, o, gerçəkdir. Əsl bal qaşıqda və soyuq havada donur. Əsl və qatqısız bal odadavamlıdır, asanlıqla yanmaz. Balı yedikdən sonra dadı 15-20 saniyə damaqda qalırsa, o bal gerçək baldır.

*Ölkə başçısının müvafiq Sərəncamı ilə qəbul edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”na əsasən Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının bir çox sahələri kimi, arıçılığın inkişaf etdirilməsi istiqamətində də tədbirlər həyata keçiriləcək, mütərəqqi kənd təsərrüfatı təcrübələrinin tətbiqi yolu ilə bu sahədə məhsul istehsalının artımına nail olunacaqdır.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## Müəllimlər Gününə həsr olunmuş tədbirlər keçirilib



*Muxtar respublikanın ali təhsil ocaqlarında Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş tədbirlər keçirilib.*

Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdə çıxış edən universitetin rektoru, dosent Elbrus İsayev professor-müəllim heyətini peşə bayramı münasibətilə təbrik edib, şərəfli və məsuliyyətli fəaliyyətlərində onlara uğurlar arzulayıb. Vurğulanıb ki, Ümummilli Lider Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb.

Universitetin Ümumi tarix kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru İsmayıl Zeynalov 56 illik pedaqoji təcrübəyə malik müəllim kimi öz təcrübələrini və xatirələrini bölüşüb.

Tədbirdə tələbələrin bədii qiraəti dinlənilib. Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Validə Hüseynovanın rəhbərliyi ilə “Belkanto” vokal qrupunun ifasında müəllim əməyinə həsr olunmuş və vətənpərvərlik mövzusunda mahnılar ifa edilib.

* * *

*Naxçıvan Müəllimlər İnstitutunda keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səslənib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Tədbirdə institutun rektoru Azad Novruzov çıxış edərək əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş milli təhsil strategiyasının bu gün uğurla davam etdirildiyini vurğulayıb.

Sonra Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının sədri Məmməd Məmmədov pedaqoji kollektivin müəllim və tələbələrini təbrik edib.

Tədbirdə şeirlər səsləndirilib, tələbələrin əl işlərindən ibarət güllər müəllimlərə təqdim edilib.

**Xəbərlər şöbəsi**

### İtmişdir

Babək rayon Cəhri qəsəbə sakini Həsənov Emin Hidayət oğlunun adına verilmiş 16.04.2014-cü il tarixli AA-008932 inventar nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayon Qarabağlar kəndində yaşamış Gülməmmədov Bəhruz Məmməd oğluna adına olan JN-562A inventar nömrəli, 10209018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

2018-ci ildə Naxçıvan Dövlət Universiteti tərəfindən Əlibəyli Arif Eldar oğluna verilmiş C № 000386 nömrəli diplom itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Çeşməbasar kəndində yaşayan Əliyeva Arifə İsa qızının adına verilmiş JN-0033 nömrəli, 10310005 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 596